“AZƏRBAYCAN MÜƏLLİMİ” 22 fevral 2025-ci il

№7.- S.10.

# Öyrənməyə həvəsli uşaqlar böyütmək üçün 6 məsləhət

Şagird və valideyn münasibətləri üzrə tədqiqatçı Cenni Anderson “CNBC” kanalına müsahibəsində şagirdlərin öyrənməyə marağını artırmaq üçün 6 vacib məsləhətdən bəhs edib. O qeyd edir ki, bəzi valideynlər uşaqlarının öyrənməyə marağını nə vaxt itirdiyini belə dərk etmirlər. Uşaqların neçə yaşında olmasından asılı olmayaraq, onların təhsilə marağı təşviq edilməli və onlarda ömürboyu öyrənməyə məhəbbət formalaşdırılmalıdır.

Anderson iddia edir ki, valideynlər uşaqlarını daha çox maraqlanmağa və öyrənmə imkanlarını axtarmağa fəal şəkildə təşviq etməlidirlər. Bu proses tələsmədən edilməlidir. Brukinq İnstitutu tərəfindən 3-cü sinifdən 12-ci sinfə qədər 65 min şagird arasında aparılan sorğuya əsasən, üçüncü sinif şagirdlərinin 75 faizi məktəbi “sevdiklərini” deyib. Onuncu sinif şagirdlərinin yalnız 25 faizi eyni fikri söyləyib. Bununla yanaşı, onuncu sinif şagirdlərinin valideynlərinin 65 faizi övladlarının məktəbi sevdiyinə inanır.

Məktəblə maraqlanan və təkbaşına öyrənməyə həvəsli olan uşaqlar daha yaxşı akademik nəticələr göstərirlər. Onlar həmçinin uzun müddətdə onlara kömək edəcək bacarıq və xarakter xüsusiyyətlərini inkişaf etdirirlər. Tədqiqatlar göstərir ki, maraqlanan və daxili motivasiyaya malik olan uşaqların xoşbəxt və uğurlu fərdlər olma ehtimalı daha yüksəkdir. “The Harris Poll for Discovery Education” tərəfindən 2024-cü ildə aparılan araşdırmaya görə, pandemiya bütün dünyada şagirdlərə mənfi təsir göstərib.

Valideynlərə övladlarında təhsilə maraq və ömürboyu öyrənmə sevgisini inkişaf etdirməyə kömək etmək üçün Andersonun altı məsləhəti var:

**1. Uşaqların təkbaşına qərar qəbul etmələrinə icazə verin**

Anderson iddia edir ki, hətta addımlarının mənfi nəticələri ilə üzləşsələr də, bəzən uşaqların öz qərarlarını vermələrinə icazə vermək lazımdır. Məsələn, ciddi ev tapşırığı cədvəlini diktə etmək əvəzinə, valideynlər uşaqlara ev tapşırıqları cədvəlini təyin etmək azadlığı verməyə cəhd edə bilərlər. Bununla belə, valideynlər mütləq möhkəm sərhədlər qoymalıdırlar. Hər zaman ev tapşırıqlarının yerinə yetiriləcəyinə dair bir gözlənti olmalıdır, lakin bu sərhədlər daxilində uşaqlara muxtariyyət vermək onlarda təkbaşına yaxşı qərarlar qəbul etmək üçün inam və motivasiyanı inkişaf etdirməyə kömək edə bilər.

**2. “Mən riyaziyyatçı deyiləm” kimi şərhlərdən çəkinin**

Anderson deyir ki, uşaqlara “böyümə zehniyyəti” öyrədilməlidir. Əks yanaşmaya – “sabit zehniyyətə” sahib olan insanlarda yeni çağırışları qəbul etmək üçün daha az motivasiya olur. Buna görə də o, valideynlərin “mən riyaziyyatçı deyiləm” kimi şərhlərdən çəkinməli olduğunu müdafiə edir. “Riyaziyyat dünyada çox vacibdir, başa düşmürsənsə, sənə kömək edək. Hər şey öyrənilə bilər, narahat olma” demək onlarda özünəinamı artırır.

**3. Uşaqların məktəbdə nə öyrəndiklərini müzakirə edin**

Mütəxəssis dərsdən sonra uşaqlarına həmin gün nəyi bəyəndiklərini və ya bəyənmədiklərini danışmağa təşviq etmək üçün onlara konkret suallar verməyi məsləhət görür. Belə suallar valideynlərin uşaqlarının məktəbdəki gündəlik təcrübələri ilə həqiqətən maraqlandığını göstərir, uşaqlarda inam yaradır, onları açıq olmağa təşviq edir. Bu cür söhbətlər uşaqlarda yetkinlik dövründə özünüdərk və özünəinamı inkişaf etdirməyə kömək edir.

**4. “Pis” deyil, “yaxşı” haqqında soruşun**

Tədqiqatçı bildirir ki, gündəlik söhbətlər zamanı uşaqlar üçün narahatlığa səbəb olan mövzuları dərhal soruşmayın. Həssas mövzularla bağlı suallar uşağınızı daha da narahat edə və günü haqqında danışmaq istəməməsinə səbəb ola bilər ki, bu da söhbətin gələcək istiqamətini poza bilər. Gün ərzində baş verən yaxşı bir şey haqqında danışdıqdan sonra mürəkkəb mövzuya keçə bilərsiniz. Valideyn-uşaq münasibətləri üzrə tədqiqatçı Cennifer Brieni Ualles də bu fikirdədir. O, iddia edir ki, övladınızla söhbətə heç vaxt “Tarix imtahanından qiymət almısan?” kimi birbaşa suallarla başlamamalısınız. Bunun əvəzinə ona “Bu gün naharda nə yedin?” deyə soruşun. Bu başlanğıc uşaqlarla sosial dinamika, dostluq, sağlamlıq və rifah haqqında daha dərin söhbətlərə səbəb olur.

**5. Səhvləriniz və onlardan necə dərs çıxardığınız barəsində danışın**

Keçmiş və ya indiki səhvləriniz və onlardan öyrəndiyiniz dərslər haqqında şəffaf olmaq uşaqların mükəmməllik meyillərini azaltmağa kömək edə bilər.

**6. Uşağınızın maraqlarına uyğun xüsusi fənləri müəyyən edin**

Brokinq İnstitutunun sorğusuna əsasən, 10-cu sinif şagirdlərinin yalnız 29 faizi məktəbdə onları maraqlandıran mövzuları öyrəndiyini deyir. Anderson qeyd edir ki, valideynlər və müəllimlər sinifdə baş verənləri dünyada baş verənlərlə əlaqələndirməlidirlər. Məsələn, əgər uşaq videooyunları sevirsə, valideyn hansı məktəb fənlərinin – incəsənət, riyaziyyat, fizika, kompüter elmlərinin onları yaratmaq üçün lazım olan bacarıqları öyrətdiyini müzakirə edə bilər. Anderson deyir ki, uşaqlar bu əlaqələri heç də həmişə açıq-aşkar görmürlər və bəzən məktəb fənlərinin onların xarici maraqları ilə necə əlaqəli olduğunu başa düşmək üçün köməyə ehtiyacları var. “Uşağınızın nə ilə maraqlandığını bilirsiniz, buna görə də nöqtələri birləşdirməyə çalışa bilərsiniz”.

**Mərziyyə KAZIMZADƏ**